**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN ŞƏRUR RAYONUNUN ENEOLİT VƏ ERKƏN TUNC DÖVRÜ ABİDƏLƏRİ (E.Ə. V-III MİNİLLİKLƏR)

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Emin Məmmədəli oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Qədim dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Vəli Baxşəli oğlu Baxşəliyev**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Abbas Qadir oğlu Seyidov**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Xəqani İmran oğlu Alməmmədov**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Məlahət Novruz qızı Fərəcova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent

______________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru
______________ **Tufan İshaq oğlu Axundov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Naxçıvan Muxtar Respublikasında aparılan araşdırmalar göstərir ki, Naxçıvan bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən biri olmuşdur. Naxçıvan Muxtar Respublikası ərazisində, xüsusilə Şərur rayonunda yerləşən arxeoloji abidələr Azərbaycan tarixinin öyrənilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Arxeoloji araşdırmalar Naxçıvan Muxtar Respublikasınının Cənubi Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu göstərir. Naxçıvanda formalaşan qədim mədəniyyətlər tarixən qonşu ölkələrlə sıx bağlı olduğundan bu bölgənin arxeoloji abidələri yalnız Naxçıvanın deyil, bütövlükdə Cənubi Qafqaz tarixinin öyrənilməsi üçün də əhəmiyyətlidir. Naxçıvan arxeoloji abidələrinin öyrənilməsi sahəsində xeyli iş görülsə də, Naxçıvan tarixinin bəzi problemləri, xüsusilə Eneolit mədəniyyətinin formalaşması, Eneolit və Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı problemlər tam şəkildə həll edilməmişdir. Xalqımızın ümummili lideri Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis olunması ilə bağlı keçirilən müşavirədəki çıxışında demişdir: "*Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir*".[1]

Tarix və mədəniyyət abidələrinin tariximizin öyrənilməsi üçün əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Azərbaycan abidələrinin tədqiqinin genişləndirilməsi ilə bağlı xüsusi sərəncamlar imzalamışdır.[2]

---

[1]Əliyev H.Ə. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları ［Elektron resurs］ / – Bakı: – 2002. – s. 108.

[2]Əliyev, İ.H. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Xalq qəzeti. – 2008, 5 fevral. – s. 1.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikanın tarix və mədəniyyət abidələrinə göstərdiyi diqqət və qayğı arxeoloji abidələrimizin yenidən öyrənilməsinə əlverişli şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli sərəncamından sonra bu sahəyə diqqət daha da artırılmışdır. AMEA Naxçıvan Bölməsi əməkdaşlarının Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə apardığı məqsədyönlü tədqiqatlar nəticəsində muxtar respublika ərazisində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, onların da əksəriyyəti arxeoloji abidədir. Bu abidələr Naxçıvanın qədim tarixini Daş dövründən başlayaraq günümüzədək izləməyə imkan verir.

Azərbaycan müstəqillik əldə etdikdən və AMEA Naxçıvan Bölməsi yaradıldıqdan sonra Naxçıvanda işləyən beynəlxalq Azərbaycan-ABŞ və Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyalarının, həmçinin AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının fəaliyyəti nəticəsində tariximizlə bağlı yeni faktlar aşkar olunmuşdur. Şərur rayonu ərazisində aparılan tədqiqatlar, xüsusilə Ovçulartəpə, Ərəbyengicə və I Maxta Kültəpə kimi qədim yaşayış yerlərinin öyrənilməsi nəticəsində Son Eneolit və Erkən Tunc dövrü mədəniyyətinin formalaşması ilə bağlı yeni faktlar aşkar olunmuşdur.

Azərbaycanın cənub bölgələrində, xüsusilə Naxçıvan və Qarabağda aparılan araşdırmalar bu bölgənin dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri olduğunu təsdiq edir. Arxeoloji araşdırmalar qədim Naxçıvan mədəniyyətlərinin Cənubi Azərbaycan və Şərqi Anadolu mədəniyyətləri ilə qarşılıqlı əlaqələr şəraitində inkişaf etdiyini və bu bölgənin tarixin müxtəlif mərhələlərində eyni mədəniyyəti paylaşdığını göstərir. Əgər nəzərə alsaq ki, Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı Proto Kür-Araz keramikası başlıca olaraq Şərur rayonunun arxeoloji abidələrindən aşkar olunub, o zaman mövzunun nə qədər aktual olduğu bir daha aydın olar. Ölkəmizin qədim sakinlərinin ətraf aləmlə tanışlığı, xammal mənbələrindən istifadə etməsi ilə bağlı məsələlərin aydınlaşdırılması üçün də Şərur abidələrinin tədqiqi

əhəmiyyətlidir. Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələrinin tədqiqi istər Eneolit, istərsə də Erkən Tunc dövrü ilə bağlı bir çox məsələlərin həlli üçün, xüsusilə bu dövrdə Naxçıvanın qədim sakinlərinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə əlaqələrini öyrənməyə və bu əlaqələrin qədim mədəniyyətlərin formalaşmasındakı əhəmiyyətini üzə çıxarmağa imkan verir. Şərur abidələrinin araşdırılması həmçinin ölkəmizin qədim sakinlərinin həyat tərzi, məşğuliyyəti, köçmə maldarlığın meydana gəlməsi ilə bağlı məsələləri də aydınlaşdırmağa imkan verir.

Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələri başlıca olaraq müstəqillik illərində geniş araşdırılmışdır.

Ə.İ.Novruzlu və V.B.Baxşəliyevin "Şərurun arxeoloji abidələri".[3] A.Q.Seyidovun 2003-cü ildə nəşr olunan "Naxçıvan e.ə. VII-II minillikdə",[4] V.B.Baxşəliyev, K.Marro və S.H.Aşurovun 2010-cu ildə nəşr olunan "Ovçulartəpəsi",[5] A.Q.Seyidovun və V.B.Baxşəliyevin 2009-cu ildə nəşr olunan "Ərəbyengicə,"[6] A.Q.Seyidov, V.B.Baxşəliyev və V.Ə.Mahmudovanın 2010-cu ildə nəşr olunan "Xələc"[7] adlı kitablarında, K.Marro, V.B.Baxşəliyev və S.H.Aşurovun 2011-ci ildə nəşr olunan məqaləsində,[8] Z.K.Quliyevanın 2012-ci ildə yazdığı "Arpaçay vadisinin Tunc dövrü abidələri"[9] adlı monoqrafiyasında, V.B.Baxşəliyev və A.Q.Seyidovun 2012-ci ildə nəşr

---

[3]Novruzlu, Ə.İ. Şərurun arxeoloji abidələri / Ə.İ.Novruzlu, V.B.Baxşəliyev – Bakı: Elm, – 1993. – s. 27-96.

[4]Seyidov, A.Q. Naxçıvan e.ə. VII-II vinillikdə / A.Q.Seyidov. – Bakı: Elm, – 2003. – s. 21-125.

[5]Baxşəliyev, V., Marro, C., Aşurov, S. Ovçulartəpəsində 2009-cu ilin araşdırmaları // Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar 2009, – 2010. – s. 279.

[6]Seyidov A.Q. Ərəbyengicə / A.Q.Seyidov, V.B.Baxşəliyev – Bakı: Nurlan, – 2009, – s. 12-47.

[7]Seyidov, A. Xələc / A.Seyidov, V.Baxşəliyev, V.Mahmudova – Bakı: Elm, – 2010. – s. 3-220.

[8]Marro, C., Bakhchaliyev V. Ashurov S.Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan) // Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, – 2011. – p. 53-100.

[9]Quliyeva, Z.K. Arpaçay vadisinin Tunc dövrü abidələri / Z.K.Quliyeva. – Bakı: Elm və təhsil, – 2012. – s. 30-31.

olunan "Aşağı Daşarx",[10] A.Q.Seyidov, V.B.Baxşəliyevin "Qədim Şərur"[11] adlı kitablarında Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələri tədqiqata cəlb edilmişdir.

Müstəqillik illərində Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü arxeoloji abidələri başlıca olaraq V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov və K.Marro tərəfindən tədqiq edilmişdir. Arxeoloji tədqiqat işləri ilə bağlı tədqiqatçıların müxtəlif kitab və məqalələrində məlumatlar verilsə də bu məlumatlar ümumiləşdirilərək yekun nəticə çıxarılmamışdır. Bu da tədqiqat işinin aktuallığını müəyyən edən cəhətlərdən biri sayıla bilər.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın tədqiqat obyekti Şərur rayonu ərazisində aşkar olunan Eneolit və Erkən Tunc dövrü abidələri, o cümlədən yaşayış yerləri və qəbir abidələri, həmçinin həmin abidələrdən aşkar olunmuş arxeoloji materiallardır. Tədqiqat işinin predmeti isə Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələrinin öyrənilməsi, həmin dövrdə Şərur rayonunun timsalında Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin, qədim soydaşlarımızın həyat tərzinin və qədim mədəniyyətlərinin araşdırılmasıdır. Arxeoloji materiallar keramika məmulatı, daş və sümükdən hazırlanmış əmək alətləri və digər maddi-mədəniyyət nümunələrindən ibarətdir. Tədqiqat işində qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq Azərbaycanın digər bölgələrinin, Cənubi Qafqaz və Yaxın Şərqlə əlqələri əks etdirən həmdövr arxeoloji materiallar da dissertasiyada araşdırma zamanı istifadə olunmuşdur.

Tədqiqat zamanı dissertasiyanın yazılmasında Ə.K.Ələkbərov, O.H.Həbibullayev, V.H.Əliyev, V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov, B.İ.İbrahimli və digərlərinin əsərlərindən mənbə kimi istifadə edilmişdir. V.B.Baxşəliyev, A.Q.Seyidov və digərlərinin Arpaçay hövzəsindən aşkar etdiyi arxeoloji materiallar dissertasiyanın əsasını təşkil etmişdir. Tədqiqat zamanı bu hövzədən bizim bilavasitə

---

[10]Baxşəliyev, V.B. Aşağı Daşarx / V.Baxşəliyev, A.Seyidov – Bakı: Elm, – 2012. – s. 12-53.

[11]Qədim Şərur / A.Q.Seyidov, V.B.Baxşəliyev, S.M.Məmmədov [və b.] – Bakı: Nurlan, – 2012. – s. 11-258.

iştirakımızla aşkar edilən arxeoloji materiallar da tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Şərur rayonununda Eneolit və Tunc dövrü abidələrin tədqiqi zamanı başlıca olaraq aşağıdakı məqsəd və vəzifələr qarşıya qoyulmuşdur:

- Orta və Son Eneolit dövrü materiallarının xarakterik xüsusiyyətlərini, onların inkişaf ardıcıllığını və bir-biri ilə əlaqələrini müəyyən etmək.
- Yaşayış yerlərindən aşkar edilmiş arxeoloji materialları təhlil edərək onları dövrləşdirmək və arxeoloji materialların nisbi xronologiyasını müəyyən etmək. Arxeoloji materiallar əsasında yaşayış yerlərinin dövrünü müəyyən etmək.
- Naxçıvan Muxtar Respublikasının muzeylərində olan arxeoloji materialları, həmçinin tədqiqatçıların əsərlərində nəşr olunan arxeoloji materialları ümumiləşdirərək onların qrafik rəsmlərini hazırlamaq və nəşr olunmayanları elmi dövriyyəyə cəlb etmək.
- Şərur rayonunun Son Eneolit və Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji materialları Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq materialları kontekstində təhlil etmək, radiokarbon analizlər əsasında arxeoloji materialların mütləq xronologiyasını müəyyənləşdirmək.
- Arxeoloji materialların müqayisəli və analitik təhlili əsasında Şərur rayonunda yerləşən arxeoloji abidələrin xüsusiyyətlərini müəyyən etmək və onların Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq abidələri arasındakı yerini müəyyənləşdirmək.
- Son Eneolit və Kür-Araz mədəniyyətlərinin mənşəyi, yayılması və dövrləşdirilməsi ilə bağlı məsələləri ümumiləşdirmək, qonşu bölgələrin bənzər arxeoloji materialları ilə birlikdə təhlil edərək yekun nəticə çıxarmaq.
- Azərbaycan, Urmiya hövzəsi və Şərqi Anadolu abidələri ilə müqayisəli araşdırma yolu ilə Kür-Araz mədəniyyətinin mənşəyinin və formalaşdığı regionun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları**. Tədqiqat işində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun işini uğurla davam etdirən İlham Əliyev və Vasif Talıbovun sərəncamlarında, çıxış və nitqlərin-

də irəli sürülən azərbaycançılıq ideologiyası əsas götürülmüş, arxeoloji materiallar Cənubi Qafqaz və Yaxın Şərq abidələri kontekstində araşdırılmışdır.

Dissertasiyada ümumiləşdirilən arxeoloji materialların araşdırılması zamanı müxtəlif elmi tədqiqat üsullarından istifadə edilmişdir. Arxeoloji materiallar tipoloji və müqayisəli təhlil üsulu ilə araşdırılmış, arxeoloji materialların dövrləşdiriməsi onların Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq abidələri arasındakı yerinin müəyyən edilməsi üçün analitik təhlil üsulu tətbiq edilmişdir. Bu məqsədlə Azərbaycanın və dünya alimlərinin indiyədək tətbiq etdiyi üsullardan istifadə olunmuş, mütərəqqi tədqiqat üsulları və elmi baxışlar inkişaf etdirilmişdir. Dissertasiyanın yazılması zamanı arxeoloji materialların tədqiqində Azərbaycan arxeoloqlarının əsərlərində işlənmiş elmi üsullardan da istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Şərur rayonunun Eneolit mədəniyyəti Naxçıvanın Erkən və Orta Eneolit dövrü mədəniyyətləri əsasında yerli zəmində formalaşmışdır. Özünəməxsus keramika və arxitekturası ilə fərqlənən "Ovçulartəpə mədəniyyəti" Urmiya hövzəsinə, Qarabağ bölgəsinə, Şərqi Anadolunun İqdır və Ağrı düzənliyinə yayılmışdır. Bu bölgə Son Eneolit dövründə eyni tarixi-mədəni rayona daxil olmuşdur;
- Azərbaycanın Şərqi Anadolu və Urmiya hövzəsi ilə iqtisadi-mədəni əlaqələrin inkişafında Şərur rayonunun Son Eneolit və Erkən Tunc dövrü abidələri mühüm əhəmiyyət daşımış və bu əlaqələr Kür-Araz mədəniyyətinin inkişafında müəyyən rol oynamışdır. Yaxın Şərqlə Cənubi Qafqaz arasında iqtisadi-mədəni əlaqələrin inkişafında Naxçıvanda və onun yaxınlığında yerləşən xammal mənbələrinin mühüm rolu olmuşdur;
- Naxçıvan və Şərqi Anadolu arasında sıx iqtisadi-mədəni əlaqələr bu regionların mədəniyyətlərinin bir-birinə təsir etməsinə və özünəməxsus xüsusiyyətləri ilə fərqlənən yerli mədəniyyətlərin yaranmasına səbəb olmuşdur. Arxaik forması ilə diqqət çəkən Proto Kür-Araz keramikasının müxtəlif abidələrdən aşkar olunması göstərir

ki, Naxçıvan, o cümlədən Şərur rayonunun ərazisi Kür-Araz mədəniyyətinin ilkin formalaşdığı regionlardan biridir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardır:

- Sərur rayonun Son Eneolit və Erkən Tunc dövrünə aid arxeoloji abidələri və bu abidələrdən aşkar olunan arxeoloji materiallar ilk dəfə olaraq kompleks şəkildə ümumiləşdirilərək sistemləşdirilmiş və monoqrafik tədqiqata cəlb edilmişdir.

- Son Eneolit dövrünə aid yaşayış yerlərinin, xüsusilə Ovçulartəpə yaşayış yerinin tədqiqi ilə bu dövrdə insanların köçmə maldarlığa önəm verdiyi, köçəri həyat tərzinin isə qonşu regionlarla əlaqələrin yaradılmasında mühüm əhəmiyyəti olduğu müəyyən edilmişdir.

- Arxeoloji materialların təhlili əsasında Eneolit dövrünün arxeoloji materialları mərhələlər üzrə təsnif edilmiş, Son Eneolit keramikasının özünəməxsus xüsusiyyətləri müəyyənləşdirilmiş və bu dövrdə Ovçulartəpə mədəniyyətinin formalaşdığı tam müəyyən edilmişdir.

- Şərur rayonundan aşkar olunan arxeoloji materialların, xüsusilə keramika məmulatının tipoloji təhlili əsasında Ovçulartəpə mədəniyyətinin Şərqi Anadolu, Urmiya hövzəsi və Azərbaycan Respublikasının cənub rayonlarını əhatə etdiyi elmi dəlillərlə ortaya çıxarılmışdır.

- Şərur rayonunun Eneolit mədəniyyətinin Azərbaycan ərazisində formalaşan Eneolit mədəniyyətlərinin davamı və tərkib hissəsi olduğu müəyyənləşdirilmişdir.

- Şərur rayonunun arxeoloji abidələrindən aşkar olunan Proto Kür-Araz keramikasının təhlili əsasında bu tip keramikanın Azərbaycanın, o cümlədən Naxçıvanın digər yaşayış yerlərində yayıldığı, bu tip keramikanın Kür-Araz mədəniyyətinə aid ən qədim keramika olduğu və bu keramikanın Eneolit mədəniyyətinin xüsusiyyətlərini daşıdığı müəyyən olunmuşdur.

- Arxeoloji materialların təhlili əsasında Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyəti əsasında Naxçıvan və Qarabağ daxil olmaqla Azərbaycanın cənub rayonlarında, Urmiya hövzəsində və Şərqi Anadoluda formalaşdığı arxeoloji dəlillərlə sübuta yetirilmişdir.

Müəyyən edilmişdir ki, Kür-Araz mədəniyyətinə aid ən qədim tarixi olan maddi-mədəniyyət nümunələri Naxçıvanda aşkar olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işi zəngin arxeoloji material və geniş elmi ədəbiyyat əsasında yazılmışdır. Arxeoloji materiallar ilk dəfə olaraq ümumiləşdirilmiş halda elmi dövriyyəyə daxil edildiyi üçün Azərbaycanın, o cümlədən Naxçıvanın qədim tarixinin öyrənilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Yeni aşkar olunan arxeoloji materiallar həmçinin Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində arxeoloji mədəniyyətlərin formalaşması və yayılma arealının müəyyən edilməsi ilə bağlı problem məsələləri həll etmək baxımından da əhəmiyyətlidir. Bu bölgədəki abidələrin geniş sahədə öyrənilməsi tədqiq edilən dövrün ictimai münasibətlərini öyrənməyə imkan verir.

Dissertasiyada ümumiləşdirilən arxeoloji materiallardan, həmçinin çıxarılan elmi nəticələrdən Cənubi Qafqaz, Yaxın Şərq və Azərbaycan arxeologiyasına aid ümumiləşdirici əsərlərin hazırlanmasında, Azərbaycan tarixi və arxeologiyasına dair dərsliklərin, həmçinin elmi-tədqiqat işlərinin yazılmasında istifadə oluna bilər.

Şərur rayonunun arxeoloji abidələrinin tədqiqi zamanı aşkar edilən arxeoloji materiallar tarix-diyarşünaslıq muzeylərinin, müxtəlif sərgilərin təşkili üçün dəyərli materiallardır. Son illər Şərur rayonunda aşkar olunaraq tədqiq olunan yaşayış yerləri yalnız Azərbaycanda deyil, bütövlükdə bütün Cənubi Qafqazda Eneolit mədəniyyətinin mərhələlərini müəyyən etmək üçün olduqca əhəmiyyətli materiallar vermişdir. Aşkar olunan materiallar həmçinin arxeoloji abidələrin pasportlaşmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu AMEA Naxçıvan Bölməsi Rəyasət heyyətinin 19 yanvar 2013-cü il tarixli iclasında və Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix üzrə Problem Şurasının 2013-cü il 4 mart tarixli iclasında (16 saylı protokol) müzakirə edilərək təsdiq olunmuşdur.

Dissertasiyanın mövzusu ilə bağlı beynəlxalq konfranslarda, Azərbaycan Respublikasında keçirilən beynəlxalq və yerli konfranslarda məruzələr edilmiş, müxtəlif elmi jurnallarda elmi məqalələr nəşr edilmişdir. Dissertasiya AMEA Naxçıvan Bölməsinin Tarix,

Etnoqrafiya və Arxeologiya İnstitutunun "Qədim dövr arxeologiyası" şöbəsində, digər uyğun şöbələrin və Naxçıvan Dövlət Universiteti əməkdaşlarının iştirakı ilə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur.

Müəllifin beynəlxalq arxeoloji ekspedisiyalarda, xüsusilə Ovçulartəpə ekspedisiyasında iştirakı zamanı bilavasitə onun aşkar etdiyi arxeoloji materiallar, o cümlədən keramika nümunələri və tunc baltalar Azərbaycan-Fransa beynəlxalq sərgisində, həmçinin Naxçıvandakı Tarix-Diyarşünaslıq muzeylərinin ekspozisiyasında nümayiş olunmuşdur. Tədqiqat işində müəyyənləşdirilən xronologiya Şərur rayonunun Tarix-Diyarşünaslıq muzeyindəki arxeoloji materialların dövrləşdirilməsində, ensiklopedik məlumatların hazırlanmasında istifadə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Qədim dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və illusturasiyalardan ibarətdir. Giriş hissə 22.549, I fəsil 27.389, II fəsil 59.078, III fəsil 90.466, nəticə hissəsi isə 14.611 işarədən ibarətdir. Ümumilikdə dissertasiya işində 214.093 işarə mövcuddur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələrinin öyrənilməsinin aktuallığı əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsindən bəhs edilmiş, elmi-tədqiqat işinin məqsəd və vəzifələri, tədqiqat metodu, müdafiəyə çıxarılan məsələlər, mövzunun elmi yeniliyi, aprobasiyası, onun nəzəri və praktiki əhəmiyyəti şərh edilmişdir.

Dissertasiyanın "**Şərur rayonunda Eneolit və Erkən Tunc dövrü abidələrinin öyrənilmə tarixi**" adlanan I Fəsli iki paraqrafdan ibarətdir. I Fəslin **"Sovet dövründə aparılan tədqiqatlar"** adlı birinci paraqrafında Şərur rayonunda aparılan arxeoloji tədqiqatlardan bəhs olunmuşdur. Şortəpə yaşayış yerinin ərazisində, 1934-cü ildə su kanalının qazılması ilə bağlı aparılar təsərrüfat işləri zamanı yaşayış yerində olan mədəni təbəqə dağıntıya məruz qalmış, Erkən və Orta Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. 1936-cı ildə Ə.K.Ələkbərov Şortəpə yaşayış yerində apardığı arxeoloji qazıntılar nəticəsində yaşayış yerinin mədəni təbəqəsini 3 m dərinliyədək tədqiq etmişdir.[12] Ə.K.Ələkbərovun tədqiqatları nəticəsində burada dörd mədəni təbəqə aşkar olunmuş, aşağıdan birinci təbəqə Kür-Araz mədəniyyətinə aid edilmişdir. 1958-ci ildə O.H.Həbibullayev[13] Sədərək və Aşağı Daşarx yaşayış yerlərində, 1971-ci ildə V.H.Əliyev[14] Ovçulartəpə yaşayış yerində tədqiqat aparmış, Eneolit və Tunc dövrünə aid keramika məmulatı aşkar olunmuşdur. XX əsrin 80-ci illərində "Naxçıvan" arxeoloji ekspedisiyası tərəfindən Xələc, Ərəbyengicə, I Maxta Kültəpə, II Maxta Kültəpə, Aşağı Daşarx və Sədərək yaşayış yerləri qeydə alınmış, Eneolit və Erkən Tunc dövrünə

---

[12]Алекперов, А.К. Исследования по археологии и этнографии Азербайджана / А.К.Алекперов – Баку: Изд-во АН Азербайджанской ССР, – 1960. – с. 54-55.
[13]Абибуллаев, О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О.А.Абибуллаев. – Баку: Элм, – 1982. – с. 15.
[14]Əliyev V.H. Naxçıvan MSSR-də 1971-ci ildə aparılmış arxeoloji tədqiqatlar // 1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar, Bakı: Elm, – 1972, – s.10

aid keramika toplanmışdır. 1980-ci ildə V.H.Əliyev və A.Q.Seyidov tərəfindən Ovçulartəpə yaşayış yerində,[15] 1982-ci ildə V.H.Əliyev və A.Q.Seyidov tərəfindən qeydə alınan Xələc yaşayış yerində tədqiqatlar aparmışdır. N.Əliyevin və S.Aşurov Ovçulartəpə, Sədərək və Xələc yaşayış yerlərindən aşkar olunan arxeoloji materialları Azərbaycanın Eneolit abidələri ilə müqayisəli şəkildə tədqiq etmişdir. 1986-1887-ci illərdə Şortəpə yaşşayış yerində. 1986-cı ildə I Maxta Kültəpədə A.Q.Seyidov tərəfindən, 1988-1989-cu illərdə I Maxta Kültəpədə Vəli Əliyev və Səfər Aşurovun[16] rəhbərliyi ilə tədqiqat aparılmışdır. Sovet dövründə Azərbaycanın digər bölgələrində olduğu kimi qədim Naxçıvanda arxeologiya elminin inkişafına kifayət qədər diqqət yetirilməmiş, Naxçıvanda yayılan qədim mədəniyyətlər və Azərbaycan tarixi ilə bağlı yanlış konsepsiyalar irəli sürülmüşdür.

I Fəslin **"Müstəqillik illərində aparılan tədqiqatlar"** adlı ikinci paraqrafında qeyd edilir ki, 1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkəmizin, o cümlədən muxtar respublikamızın arxeoloji abidələrinin öyrənilməsində yeni mərhələ başlanmışdır. Xalqımızın ümumimilli lideri Heydər Əliyev 1993-cü ildə Respublika Prezidenti seçildikdən sonra elmin və mədəniyyətin inkişafı üçün ardıcıl islahatlar həyata keçirilmiş, onun tövsiyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənmişdir.

1993-cü ildə V.B.Baxşəliyev və Ə.İ.Novruzlu Şərur rayonunda yerüstü araşdırmalar aparmış və tədqiqatların nəticəsi nəşr edilmişdir.[17] Bu monoqrafik əsərdə həmçinin V.B.Baxşəliyevin əvvəlki illərdə Şərur rayonunda apardığı arxeoloji araşdırmaların nəticələri də əks olunmuşdur.

---

[15]Seyidov, A.Q. Naxçıvan e.ə. VII-II vinillikdə / A.Q.Seyidov. – Bakı: Elm, – 2003. – s. 28.

[16]Əliyev V., Aşurov S. Naxçıvan arxeoloji ekspedisiyasının 1988-ci il tədqiqatlarının hesabatı / V.Əliyev, S. Aşurov. – Bakı: Azərbaycan EA TİEA, inv.№ H-487, – 1989. – s. 1-28.

[17]Novruzlu, Ə.İ. Şərurun arxeoloji abidələri / Ə.İ.Novruzlu, V.B.Baxşəliyev – Bakı: Elm, – 1993. – s. 8-175.

2001-ci ildə S.H.Aşurov tərəfindən Ovçulartəpə yaşayış yeri tədqiq edilmiş, Eneolit və Erkən Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları, o cümlədən tikinti qalıqları aşkar olunmuşdur. 2002-ci ildə Şərur rayonunun Maxta kəndi yaxınlığında yerləşən Qarabulaq nekropolunun Səfər Aşurov tərəfindən araşdırılması zamanı nekropolda Erkən Tunc dövrünə aid qəbir abidələrinin olduğu müəyyən olunmuşdur.[18] 2006-cı ildə ilkin kəşfiyyat işlərindən sonra Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən Ovçulartəpə yaşayış yerinin geniş tədqiqinə başlanmışdır. V.B.Baxşəliyev, K.Morro və S.H.Aşurovun rəhbərliyi ilə 2006-2013-cü illərdə yaşayış yerində təqribən iki hektardan artıq sahə davamlı və sistemli şəkildə tədqiq edilmiş, Eneolit və Erkən Tunc dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.[19] Tədqiqat zamanı Eneolit dövrünə aid iki, Erkən Tunc dövrünə aid bir tikinti qatı aşkar olunmuşdur.

2008-ci ildə Ərəbyengicə yaşayış yerində, A.Q.Seyidov və V.B.Baxşəliyevin rəhbərliyi ilə tədqiqatlar başlanmış, 14 arxeoloji kompleks aşkar olunmuşdur.[20] Ərəbyengicə yaşayış yerinin alt təbəqələrindən Eneolit dövrünə aid keramika məmulatının aşkar olunması olduqca maraqlıdır. 2006-cı ildə Azərbaycan-Amerika Birləşmiş Ştatları birgə arxeoloji ekspedisiyası I Maxta Kültəpədə V.B.Baxşəliyev, S.H.Aşurov və L.Ristvet tərəfindən yoxlama qazıntısı aparmış, yaşayış yerində Kür-Araz mədəniyyətinin müxtəlif dövrlərinə aid tikinti qalıqları, keramika nümunələri aşkar olunmuşdur. 2008-2013-cü illərdə I Maxta Kültəpə yaşayış yerində S.H.Aşurovun rəhbərliyi ilə arxeoloji qazıntı aparılmış, Erkən Tunc dövrünə aid tikinti qalıqları, ziyarətgah və zəngin keramika məmulatı aşkar olunmuşdur.[21]

---

[18] Aşurov, S.H. Naxçıvanda arxeoloji tədqiqatlar / S.H.Aşurov. – Bakı: Nafta-Press, – 2003. – s. 35.

[19] Baxşəliyev, V. Ovçulartəpəsi / V.Baxşəliyev, C.Marro, S.Aşurov – Bakı: Elm, – 2010. – 5-10.

[20] Seyidov A.Q. Ərəbyengicə / A.Q.Seyidov, V.B.Baxşəliyev – Bakı: Nurlan, – 2009, – s. 16-42.

[21] Aşurov, S.H. Maxta arxeoloji ekspedisiyasının tədqiqatları / S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova ［və b.］ // Azərbaycanda arxeoloji tədqiqatlar 2012, – Bakı: – 2013. – s. 100-108.

Aşkar olunmuş maddi-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin öyrənilməsi üçün olduqca dəyərlidir.

2009-cu ildə A.Q.Seyidov və V.B.Baxşəliyevin rəhbərliyi ilə Xələc yaşayış yerində iki sahədə arxeoloji qazıntılar aparılmış, aşkar olunan maddi-mədəniyyət nümunələri 2010-cu ildə monoqrafiya şəklində nəşr etdirilmişdir.[22]

2012-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası A.Q.Seyidov və V.B.Baxşəliyevin rəhbərliyi ilə Şortəpə yaşayış yerində yenidən tədqiqat işləri aparmış, keramika nümunələri tədqiqatçılar tərəfindən iki qrupa bölünərək araşdırılmışdır. Şortəpənin Kür-Araz keramikasının e. ə. V minilliyin sonu və III minilliyin əvvəlinə aid olduğunu göstərmişdir.

2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Vəli Baxşəliyevin rəhbərliyi ilə Şərur rayonu ərazisində mühüm arxeoloji əhəmiyyəti olan Ərəbyengicə yaşayış yerində tədqiqat işləri aparmışdır. [23]

Müstəqillik illərində Ovçulartəpə, Zirincli, Sərinbulaq, Yeniyol, Şorsu, Dəyirmanyeri və digər abidələrdə aparılan qazıntılar zamanı Son Eneolit dövrünün üç inkişaf mərhələsindən keçdiyi,[24] e.ə. V minilliyin ikinci yarısında Naxçıvan ərazisində "Ovçulartəpəsi mədəniyyəti" nin formalaşdığı müəyyənləşdirilmişdir.

Şərur rayonun arxeoloji abidələrinin, o cümlədən onlardan aşkar olunan arxeoloji materialların Cənubi Azərbaycan (Şimal-Qərbi İran) və Qərbi Azərbaycanın (müasir Ermənistan) həmdövr abidələrindən tapılmış tapıntılarla müqayisəli təhlili bu torpaqların da əzəli Azərbaycan-türk yurdu olduğunu təsdiqləməkdədir.

---

[22]Seyidov, A. Xələc / A.Seyidov, V.Baxşəliyev, V.Mahmudova – Bakı: Elm, – 2010. – s. 8-15.

[23]Baxşəliyev, V.B., Seyidov, A.Q. Ərəbyengicədə 2013-cü ilin arxeoloji qazıntıları // – Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, – 2015, – s. 96-102.

[24]Бахшалиев, В.Б. Новые энеолитические памятники на территории Нахчывана // – Москва: Российская археология, – 2014. № 1, – с. 83-90.

Dissertasiyanın **“Eneolit dövrünə aid arxeoloji abidələr”** adlı II Fəsli beş paraqrafdan ibarətdir. II Fəslin **“Orta Eneolit dövrü”** adlı birinci paraqrafında Xələc və Şortəpə yaşayış yerlərindən aşkar olunmuş keramika məmulatı araşdırılmışdır. Orta Eneolit dövrünün boyalı keramika məmulatının inkişafına Şimali Mesopotamiya mədəniyyətlərinin müəyyən təsiri olmuşdur. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Son illər Ovçulartəpədə aşkar olunan mis filizinin qalıqları filizin emal üçün yaşayış yerinə gətirildiyini təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına tələbatın artması da müəyyən rol oynamışdır.[25]

II Fəslin **“Son Eneolit dövrünün birinci mərhələsi”** adlı ikinci paraqrafında bu dövrə aid yaşayış yerləri və qəbir abidələrindən aşkar olunan arxeoloji materiallar təhlil edilmişdir. Bu dövrə aid arxeoloji materiallar Ovçulartəpə yaşayış yerindən aşkar olunmuşdur. İkinci paraqrafın **“Arxitektura qalıqları”** adlı birinci bəndində Ovçulartəpə yaşayış yerindəki ilk insanların diraklərlə qurulan evlərdə yaşadığı qeyd edilmiş, birinci mərhələ üçün yarımqazma tipli evlərin xarakterik olduğu göstərilmişdir. 2009-2013-cü illərdə aparılan qazıntılar zamanı da birinci sahədə yarımqazma tipli evlərin çoxotaqlı kərpic evlərin altından aşkar olunması onların Ovçulartəpənin ən qədim arxitektura qalıqları olduğunu göstərir. Lakin Naxçıvanda aparılan arxeoloji araşdırmalar göstərir ki, yarımqazma tipli evlər Neolit dövründən başlayaraq istifadə olunmuşdur. Bu tip evlər həmçinin Naxçıvantəpənin Neolit və Erkən Eneolit təbəqəsində aşkar olunmuşdur. Bu tip yarımqazmalar həmçinin etnoqrafik araşdırmalar zamanı Baş-yurd yaylağında da rast gəlinmişdir.[26] Radiokarbon ana-

---

[25] Baxşəliyev, V. Sirabda arxeoloji araşdırmalar / V.Baxşəliyev, Z.Novruzov – Bakı: Oskar, – 2010. – s. 30.
[26] Bahşeliyev, V. Azerbaycan’ın Son Neolitik ve İlk Kalkolitik Çağ Kültürlerinin Kuzeybatı İran ile (İran Azerbaycanı) İlişkileri // Ankara: TUBA-AR, – 2020, 27, – s. 19-22.

lizin (C14) nəticələrinə görə Ovçulartəpəsinin Son Eneolit dövrünə aid birinci təbəqəsi e.ə. 4350-4200-cü illərə aid edilir. Ovçulartəpədə təsərrüfat quyularının iki tipi aşkar olunmuşdur. Birinci mərhələyə aid evlərin içərisində təsərrüfat quyuları olduğu halda ikinci mərhələdə belə quyulara demək olar ki, rast gəlinməmişdir. Aparılan araşdırmalar göstərir ki, Son Eneolit dövründə ailələrin özünəməxsus təsərrüfat quyuları, yaxud təsərrüfat məqsədi ilə istifadə olunan, döşəməyə basdırılmış böyük küpləri olmuşdur.

İkinci paraqrafın **"Keramika məmulatının tipologiyası və ornamental xüsusiyyətləri"** adlı ikinci bəndində birinci mərhələyə aid keramika məmulatı tipoloji cəhətdən təhlil edilmiş, onların regional paralelləri göstərilmişdir. Qısa silindrik boğazlı küpə tipli qabların bir qrupunun ağzının kənarı çəpinə çəkilmiş çərtmələrlə naxışlanmışdır. Bu motivdə naxışlanmış keramika nümunələri Son Eneolit dövrünə aid bir sıra yaşayış yerlərindən, o cümlədən Menteştəpə, Leylatəpə və digər yaşayış yerlərindən də aşkar olunmuşdur. Bu tip ornamentasiya Azərbaycanın Son Eneolit abidələri üçün xarakterikdir. T.Kiquradze tərəfindən Gürcüstanda Sioni yaşayış yerində aşkar olunan bu tip keramika "Sioni keramikası" adlandırılmışdır. Araşdırmalar göstərir ki, "Sioni keramikası"qum qarışıq və cilalıdır, lakin Ovçulartəpə yaşayış yerindən aşkar olunan keramika nümunələri saman qarışıq gildən hazırlanmışdır. Lakin yalnız naxış motivinə əsaslanaraq bu tip keramika məmulatının arxeoloji ədəbiyyatda Sioni keramikası adlandırılmasını tədqiqatçılar düzgün hesab etməmişdir.[27] Bu tip keramika məmulatı N.Müseyibli tərəfindən geniş tədqiq edilmiş, Sioni mədəniyyətinin və Leylatəpə mədəniyyətinin fərqli mədəniyyətlər olduğu göstərilmişdir.

II Fəslin **"Son Eneolit dövrünün ikinci mərhələsi"** adlı üçüncü paraqrafında bu dövrə aid arxeoloji materiallar araşdırılmışdır. Üçüncü paraqrafın **"Arxitektura qalıqları"** adlı birinci bəndində bu mərhələ üçün çoxotaqlı evlərin xarakterik olduğu göstərilmişdir. On

---

[27]Marro, C., Bakhchaliyev V. Ashurov S.Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan) // First preliminary report: the 2006-2008 seasons. Anatolia Antiqua, – 2009. XVII, – s. 53.

ikinci qazıntı sahəsində aşkar olunan ev daş təməl üzərində kərpiclə inşa edilmiş beş otaqdan ibarət idi. Araşdırmalar göstərir ki, əvvəlcə böyük otağın inşa olunduğunu, kiçik otaqların isə sonradan əlavə edildiyini göstərir.[28] Araşdırmalar Ovçulartəpə yaşayış yerində düzbucaqlı evlərin təsərrüfat həyətləri ətrafında inşa edildiyini göstərir. Təsərrüfat həyətlərindəki quyuların içərisindən müxtəlif məişət əşyaları, o cümlədən keramika parçaları və heyvan sümükləri aşkar olunmuşdur.

Bununla belə, yaşayış yerinin ümumi təsərrüfat anbarı da olmuşdur. Onlar torpaqda qazılmış dairəvi formalı quyulardan ibarət olmuşdur. Yaşayış evlərinin və təsərrüfat anbarlarının bu tip planı hələlik heç bir yaşayış yerində rast gəlinməmişdir. Arxeoloji tapıntılar bu dövrdə artıq çoxotaqlı evlərdə yaşayan böyük ailələrin vahid bir təsərrüfat kompleksinə sahib olduğunu göstərir. Ovçulartəpə yaşayış yerinin Son Eneolit dövrünə aid ikinci tikinti qatı karbon analizlər əsasında e.ə. 4200-4000-ci illərə aid edilir.[29]

Üçüncü paraqrafın **"Keramika məmulatının tipologiyası və ornamental xüsusiyyətləri"** adlı ikinci bəndində bu mərhələyə aid keramika məmulatı tipoloji təhlil edilmişdir. Ovçulartəpə yaşayış yerinin hər iki mərhələsinin keramika məmulatı istər formasına, istərsə də hazırlanma üsuluna görə eynidir. Keramika məmulatının formasında izlənilən azacıq fərqlər bu mədəniyyətin inkişafı ilə bağlı olmuşdur. Hər iki mərhələnin keramikasında daraq basqısı, barmaq basqısı, məməcikşəkilli qabarıq ornamentlə naxışlama, qabarıq keçi təsvirləri halqavari qabarıq ornamentə rast gəlinir.

Konusvarı, qabarıq kasaların, küpə tipli qabların və manqalların hazırlanmasında varislik aydın şəkildə hiss olunur. Demək olar ki, Ovçulartəpə yaşayış yerinin erkən və son mərhələlərinin keramikası arasında nəzərəçarpacaq dəyişiklik yoxdur. Bu baxımdan deyə bilərik

---

[28]Marro, C., Bakhchaliyev V. Ashurov S.Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan) // Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, – p. 59, fig. 3.
[29]Baxşəliyev, V., Marro, C., Aşurov, S. Ovçulartəpəsində 2009-cu ilin araşdırmaları // Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar 2009, – s. 279.

ki, ikinci mərhələyə aid keramika birinci dövrün ənənələri əsasında inkişaf edərək formalaşmışdır. Fikrimizcə, hər iki mərhələnin arxeoloji materialları eyni bir mədəniyyətin müxtəlif dövrlərini əks etdirir. Belə hesab edirik ki, tədqiqatçılar tərəfindən özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bu tip keramikanın Ovçulartəpə mədəniyyəti adlandırılması düzgündür.

II Fəslin **"Əhalinin məşğuliyyəti"** adlı dördüncü paraqrafında Son Eneolit dövründə Şərurda məskunlaşan insanların müxtəlif təsərrüfat sahələri ilə məşğul olduğunu insanların köçmə maldarlığı mənimsədiyini göstərir. Köçmə maldarlığın inkişafı insanların Cənubi Qafqaz və Yaxın Şərqin müxtəlif ölkələri ilə əlaqə yaratması baxımından xüsusilə əhəmiyyətli olmuşdur. Dördüncü paraqrafın **"Əkinçilik və maldarlıq"** adlanan birinci bəndində heyvan sümükləri və botaniki qalıqların araşdırılması əsasında heyvandarlıq və əkinçiliyin Ovçulartəpə sakinlərinin həyatında mühüm yer tutduğu göstərilir. Taxıl dənlərinin analizi əkinçilikdə arpa və buğda becərildiyini, lakin arpa əkininin üstünlük təşkil etdiyini göstərir. Botaniki qalıqların analizi insanların çölnoxudu və noxuddan istifadə etdiyini göstərir. Araşdırmalar taxılın yerli istehsala məxsus olduğunu göstərir. Ovçulartəpə yaşayış yerinin Arpaçay vadisində yerləşməsi suvarma əkinçiliyindən istifadə etməyə imkan vermişdir.

Ümumiyyətlə, Ovçulartəpə yaşayış yerindən əldə olunan botaniki qalıqların və heyvan sümüklərinin araşdırılması əkinçilikdə yazlıq arpa əkininə, heyvandarlıqda isə balıqçılıq və xırdabuynuzlu heyvandarlığa üstünlük verildiyini göstərir.

Dördüncü paraqrafın **"Metallurgiya və metalişləmə"** adlanan ikinci bəndində Naxçıvanda metallurgiya və metalişləmə sənətinin qədim tarixə malik olduğunu göstərir.[30] Şərur rayonunun Eneolit dövrü abidələri arasında metal emalı və metalişləmə sənəti ilə bağlı tapıntılar Ovçulartəpə yaşayış yerinin tədqiqi zamanı aşkar olunmuşdur. Buradan aşkar olunan körük ucluğu metal emalının varlığını

---

[30]Бахшалиев, В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани / В.Б.Бахшалиев. – Баку: Элм, – 2005 – с. 77-81.

təsdiq edən faktlardandır.[31] Körük ucluğu e. ə. V minilliyin ikinci yarısında metaləritmə və metalişləmə kürələrində süni üfürmədən istifadə olunduğunu göstərir ki, bu da həmin dövr üçün olduqca böyük texnoloji nailiyyət idi.

Ovçulartəpə yaşayışış yerinin tədqiqi zamanı iki yüzdən artıq metal əşya aşkar edilmişdir ki, onların da bir qismi bütöv haldadır. Burada metalişləmə sobaları aşkar olunmasa da, yaşayış yerindən xeyli metal əşyanın aşkar olunması və metal məmulatının kimyəvi tərkibinin analizi bu əşyaların yerli istehsalın məhsulu olduğunu göstərir. Ovçulartəpə yaşayış yerində bütöv şəkildə aşkar olunan metal əşyalar əsasən iynə, balıq qarmağı və baltalardan ibarətdir. Metal əyaların kimyəvi tərkibinin, Naxçıvan ərazisində olan mis yataqlarındakı filizlərin tərkibi ilə, həmçinin Ovçulartəpə yaşayış yerindən aşkar olunan filiz qalıqlarının tərkibi ilə müqayisəli araşdırılması baltaların yerli xammal əsasında və yaşayış yerində hazırlandığını təsdiq edir.[32]

II Fəslin **"Eneolit mədəniyyətinin mənşəyi və xronologiyası"** adlı beşinci paraqrafında arxeoloji materialların təhlili əsasında Son Eneolit mədəniyyətinin yerli ənənələr əsasında inkişaf etdiyi qeyd edilmişdir. Amma buna baxmayaraq, Yaxın Şərq və Cənubi Qafqaz ölkələri ilə müəyyən əlaqələr də izlənməkdədir. Ovçulartəpə keramikasının ornamental xüsusiyyətləri Norşuntəpə və Tülintəpə yaşayış yerlərinin keramikası ilə bənzərdir. Keramika məmulatının naxışlanmasında istifadə olunan qabarıq kəmər üzərindən vurulan çərtmələr, barmaq basqıları, ilanvari qabarıq kəmərlər, məməcikşəkilli ornamentlərin kompozisiyasının tam bənzərliyi xüsusilə maraq doğurur. Maraqlı cəhətlərdən biri də ilanvari qabarıq kəmərlərin Şərqi Ana-

---

[31]Baxşəliyev, V., Marro, C., Aşurov, S. Son Eneolit və Erkən Tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yeri // – Bakı: Azərbaycanın erkən əkinçilik dövrü abidələri, – 2012. – s. 80.

[32]Gailhard, N. Michael Bode, Veli Bakhshaliyev, Andreas Hauptmann & Catherine Marro. Archaeometallurgical Investigations in Nakhchivan, Azerbaijan: What Does the Evidence from Late Chalcolithic Ovçular Tepesi Tell Us about the Beginning of Extractive Metallurgy? // Journal of Field Archaeology. – 2017. 42/6, – p. 544-548.

doluda Neolit dövründən başlayaraq istifadə olunmasıdır. Bununla belə, Şərqi Anadoluda qara rəngli keramikada rast gəlinən bu tip ornamentlər Ovçulartəpə yaşayış yeridə qırmızı rəngli keramikada istifadə olunmuşdur. Buna görə də birbaşa Şərqi Anadolu mədəniyyətlərinin gəlməsindən deyil, yalnız onun təsirindən söz açıla bilər. Qeyd etmək istəyirik ki, Şərqi Anadoluda meydana çıxan saman qarışıq keramika tədqiqatçılar tərəfindən Mesopotamiya mənşəli hesab edilmişdir.[33] Lakin araşdırmalar bu tip keramikanın həm Şərqi Anadoluda, həm də Naxçıvanda yerli zəmində inkişaf etdiyini deməyə imkan verir. Saman qarışıq və səthində saman izləri olan keramika Naxçıvanın Son Neolit keramikasında aydın izlənir və Naxçıvanda bu tip keramikanın istehsalı e. ə. VII-V minilliklər boyu davam etmişdir.

Tədqiqatlara əsasən deyə bilərik ki, Cənubi Qafqazın Ağrı vadisi, Mil düzü, Naxçıvan, Urmiya gölünün şimalı və Şərqi Anadolunun müəyyən hissəsi e. ə. V minilliyin sonunda eyni mədəniyyətin yayılma arealına daxil olmuşdur. Həmçinin Şərur rayonunda e. ə. V minilliyin ikinci yarısında Ovçulartəpə yaşayış yerində meydana çıxan mədəniyyət Azərbaycanın müəyyən rayonlarını da əhatə etmişdir.

Dissertasiyanın III Fəsli **“Erkən Tunc dövrünün abidələri”** adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. III Fəslin **“Yaşayış yerləri”** adlanan birinci paraqrafında Erkən Tunc dövrünə aid Ovçulartəpə, I Maxta Kültəpə, Ərəbyengicə, Şortəpə, Aşağı Daşarx yaşayış yerlərində aparılan arxeoloji qazıntılar və aşkar olunan arxeoloji materiallar haqqında məlumat verilmişdir. Arxeoloji materiallar qara və boz rəngli keramika parçalarından, ocaq qurğusu, daş və sümük alətlərdən ibarət olmuşdur. Maddi-mədəniyyət nümunələrinin Kür-Araz mədəniyyətinin erkən, orta və son mərhələlərinə aid olması müəyyənləşdirilmişdir.

III Fəslin **“Qəbir abidələri”** adlı ikinci paraqrafında Şərur rayonunda yerləşən Qarabulaq, Dizə nekropollarında və Ovçulartəpədə

---

[33] Braidwood, R.J. Excavations in the plain of Antioch I. The earlier assemblages, Phases A-J, Oriental Institute Publications, 61 / R.J.Braidwood, L.S.Braidwood. – Chicago: the University of Chicago Press. – 1960. – p. 232

tədqiq olunan qəbir abidələri haqqında məlumat verilmişdir. Qarabulaq nekropolu 1988-1990-cı illərdə və 2002-ci ildə Səfər Aşurovun rəhbərliyi ilə araşdırmalar aparılmışdır. Araşdırma zamanı qeydə alınan qəbir abidələrinin müəyyən hissəsi Erkən Tunc dövrünə aiddir.[34] Qarabulaq kurqanlarının tədqiqinə əsasən demək olar ki, onların qəbir kameraları dördkünc formalı və daş qutu tipli olmuşdur. Səfər Aşurovun məlumatına görə, kurqanlardan aşkar olunmuş keramika nümunələri Kür-Araz mədəniyyəti üçün xarakterik olub e. ə. III minilliyin ortaları ilə tarixləndirilmişdir. Erkən Tunc dövrünə aid qəbir abidəsinə Ovçulartəpə yaşayış yerində də rast gəlinmişdir. On birinci sahədə qeydə alınan 11.285 nömrəli qəbir C14 analizlərə əsasən e. ə. III minilliyin birinci yarısına aid edilir.[35] Erkən Tunc dövrünə aid qəbir abidələri Menteştəpə və Uzunrəmədə[36] aşkar olunmuşdur.

Şərur rayonu ərazisində aşkar olunmuş qəbir abidələrinin bir qrupu Dizə kəndi ətrafında aşkar olunmuşdur. Burda aşkar olunan qəbir abidələri vaxtilə V.H.Əliyev və R.Göyüşov tərəfindən tədqiq olunmuşdur. Qəbirlərin biri şərq-qərb istiqamətində olub oval formalı idi. Qəbir kamerası çay daşlarından gil məhlul istifadə edilməklə qurulmuşdur.[37] Ümumiyyətlə, Şərur rayonu ərazisində Erkən Tunc dövrünə aid qəbir abidələri çox az tədqiq olunmuşdur. Lakin buna baxmayaraq, qəbir tipləri tədqiq olunarkən və dəfn adəti öyrənildikcə bu dövrdə olduqca müxtəlif qəbir abidələrinin və dəfn adətinin olduğunu demək mümkündür. Qəbir abidələrinin və dəfn adətlərinin müxtəlifliyi, ehtimal ki, insanların dünyagörüşü ilə bağlı olmuşdur.

---

[34]Aşurov, S.H. Naxçıvanda arxeoloji tədqiqatlar / S.H.Aşurov. – Bakı: Nafta-Press, – 2003. – s. 35.
[35]Marro, C, Yılmaz, Y. The Infant Jar-Burıals from the Late ChalcolıthıcVillage of Ovcular Tepesı (Nakhchıvan, Azerbaijan):a Mesopotamıan Tradıtıon // Studies on the Archaeology of the Ancient Near Eastin Honour of Antonio Sagona, – Paris: – 2018. – p. 29-48.
[36] Poulmarc'h, M., Pecqueur, L., Jalilov B. "An overview of Kura-Araxes funerary practices in the Southern Caucasus," // Paleorient, – 2014. 40(2), – p. 231–246.
[37]Сеидов, А.Г. Памятники Куро-Аракcской культуры Нахичевани / А.Г.Сеидов. – Баку: Билик, – 1993. – s. 43.

III Fəslin **“Arxeoloji materialların təhlili”** adlanan üçüncü paraqrafında yaşayış yeri və qəbir abidələrindən aşkar olunan arxeoloji materiallar tədqiq edilmişdir. Üçüncü paraqrafın **“Əmək alətləri”** adlanan birinci bəndində müxtəlif daş növlərindən, metaldan və sümükdən hazırlanan alətlər tədqiq edilmişdir. Arxeoloji materialların təhlili göstərir ki, bu dövrdə metal əşyalarla yanaşı, daşdan və sümükdən hazırlanmış əmək alətlərindən də istifadə olunmuşdur. Belə hesab edirik ki, bu dövrdə daşişləmə və sümükişləmə kimi sənət sahələri mövcud olmuşdur.

Üçüncü paraqrafın **“Erkən Tunc dövrünün keramika məmulatı”** adlanan ikinci bəndində Kür-Araz keramikasının xüsusiyyətlərindən bəhs olunmuş, üçüncü paraqrafın **“Proto Kür-Araz keramikası”** adlanan üçüncü bəndində isə Şərurun Erkən Tunc dövrü abidələrindən aşkar olunan Kür-araz mədəniyyətinin erkən mərhələsinə aid keramika məmulatının xüsusiyyətləri göstərilmişdir. Bu tip keramika Ərəbyengicə, Şortəpə, Ovçulartəpə, I Maxta Kültəpə, Aşağı Daşarx yaşayış yerlərindən məlumdur. Bu tip keramika məmulatı müəyyən hissəsi Son Eneolit üçün xarakterik xüsusiyyətlərə malikdir. Proto Kür-Araz keramikasının əsas əlamətləri sırasına saman və iri daş ovuğu qarışığının olması, onların xarici, yaxud daxili səthinin daraqvari alətlə naxışlanmasıdır. Proto Kür-Araz keramikasının nə zaman meydana çıxdığı Ovçulartəpə yaşayış yerində aparılan araşdırmalar zamanı müəyyən edilmişdir. Buradan, Erkən Tunc dövrünə aid ocaqların birindən alınan kömürün radiokarbon analizi e.ə 4200-4000-ci illəri göstərmişdir. Üçüncü paraqrafın **“Kür-Araz keramikasının inkişaf xüsusiyyətləri”** adlı dördüncü bəndində gil qab, sitayiş əşyaları, manqal, gil təkər modeli, heyvan fiqurları tədqiq olunmuşdur. Erkən mərhələdə keramika məmulatında çəhrayı astar az, qulplar isə uzunsov formalıdır. Qulpların yerləşdirilməsi müxtəlifdir. Onlar bəzən ağız kənarında, bəzən isə gövdənin yuxarısında yerləşdirilmişdir. Lakin Erkən Tunc dövrünün orta mərhələsinə aid kasa və çölməklərin gövdəsinin proporsiyasında müəyyən dəyişiklik qeydə alınır. Orta mərhələnin xarakterik xüsusiyyəti çölmək, küpə və banka tipli qablarda çəhrayı astarın meydana çıxmasıdır. Bu rəng narıncıdan qəhvəyiyədək dəyişir. Bu mərhələnin qabları yaxşı anqob-

lanmış, bəzi qabların səthi yüngülcə cilalanmışdır. Ancaq belə qablar olduqca azdır. Əsası Eneolit dövründən başlayan və Erkən Tunc dövründə daha da inkişaf edən bəzək üsullarının (yapma, cızma, basma, oyma) Erkən və Orta Tunc dövründə təkmilləşməsi mədəniyyətlərin bir-biri ilə genetik bağlılığının göstəricisidir. Kür-Araz mədəniyyətinin son mərhələsi üçün nazik divarlı məişət qabları xarakterikdir. Çəhrayı astar bu mərhələdə aradan çıxır. Üzəri parıldayanadək cilalanmış qablar geniş yayılır. Onların səthində cilalayıcı alətin izlərini asanlıqla görmək mümkündür.

Kür-Araz mədəniyyəti tayfalarının ideologiyasının öyrənilməsində I Maxta Kültəpə yaşayış yerində aşkar olunan ziyarətgahın da mühüm əhəmiyyəti vardır.[38] Erkən Tunc dövrü abidələrindən aşkar olunan arxeoloji materiallar bu dövrdə insanların zəngin dünyagörüşə malik olduğunu, həmçinin onların müxtəlif obyektlərə sitayiş etdiyini göstərir.

Üçüncü paraqrafın beşinci bəndi **"Metallurgiya və metalişləmə"** adlanır. I Maxta Kültəpədən aşkar olunan metalişləmə ocaqları və qəliblər, həmçinin I Maxta Kültəpə, Ovçulartəpə və Aşağı Daşarx yaşayış yerlərindən aşkar olunmuş metal əşyalar metalişləmənin yüksək inkişaf səviyyəsində olduğunu göstərir. I Maxta Kültəpə yaşayış yerindən aşkar olunan qəbilələrarası və ya tayfalararası əmtəə mübadiləsində tətbiq edilən "tokins" adlandırılan konusvari, sədəfəbənzər formalı əşyaların əldə olunması inzibati idarəçiliyin ilk əlamətləri hesab olunur və artıq e.ə. IV minilliyin sonlarından Azərbaycan ərazisində sinfi təbəqələşmənin, sosial bərabərsizliyin və beləliklə, dövlətçilik ənənələrinin mövcudluğundan xəbər verir.[39]

III Fəslin dördüncü paraqrafı **"Kür-Araz mədəniyyətinin mənşəyi və xronologiyası"** adlanır. Kür-Araz mədəniyyəti abidələrinin

---

[38] Əliyev, V., Aşurov, S. Maxta Tunc dövrü abidələri // Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi конfransı, – Bакı: – 1992. – s. 40.

[39] Aşurov, S.H. Maxta arxeoloji ekspedisiyasının tədqiqatları / S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova ［və b.］ // Azərbaycanda arxeoloji tədqiqatlar 2012, – Bakı: – 2013. –s.105.

tədqiqi, onların bilavasitə, Azərbaycanın Neolit və Eneolit mədəniyyəti ilə bağlı olduğunu göstərir. Bu bağlılıq hər şeydən əvvəl, yaşayış binalarının arxitekturasında özünü göstərir. Kür-Araz mədəniyyətinin ilk mərhələsinin keramikası tamamilə Eneolit dövrü ilə bağlanır. Birinci mərhələnin qablarında Eneolit dövrü üçün xarakterik olan, qaba hazırlanmış, qeyri-bərabər bişirilmiş qablara rast gəlinir. Bu baxımdan, II Kültəpənin alt qatlarından tapılan keramika və Ovçulartəpənin keramikası diqqəti cəlb edir. Buradan aşkar olunmuş bəzi qab parçalarının tərkibində Eneolit dövrü üçün xarakterik olan saman qarışığına rastlanmışdır. Erkən Tunc dövrü mədəniyyətinin dövrləşməsi və mənşəyi ilə bağlı tədqiqatçılar müxtəlif fikirlər irəli sürmüşlər. Tədqiqatçıların bir qrupu hesab edirdi ki, Erkən Tunc və Son Eneolit mədəniyyətləri arasında heç bir genetik bağlılıq olmamış, Kür-Araz mədəniyyəti Cənubi Qafqaz ərazisinə "gətirilmişdir".[40] Lakin yuxarıda, "Proto Kür-Araz keramikası" bəndində qeyd etdiyimiz kimi, Şərur abidələrinin tədqiqi Naxçıvanın bu mədəniyyətin formalaşdığı əsas bölgələrdən biri olduğunu göstərir. Naxçıvanda, o cümlədən Şərur rayonunda yerləşən abidələrin tədqiqi Kür-Araz mədəniyyətinin inkişafını dörd mərhələyə bölməyə imkan vermişdir.[41]

Kür-Araz mədəniyyəti ikinci mərhələdə geniş inkişaf edərək, Azərbaycanın bütün ərazisinə yayılmışdır. Yarımköçəri maldarlığın inkişafı ilə bağlı olaraq, dağətəyi və dağlıq rayonlarda intensiv məskunlaşma olmuşdur. Kür-Araz mədəniyyəti Azərbaycandan Cənubi Qafqaz, Şimali Qafqaz və digər bölgələrə yayılaraq, geniş ərazini əhatə etmişdir. Araşdırmalara əsaslanaraq deyə bilərik ki, Azərbaycanın cənub bölgələri, xüsusilə Qarabağ, Naxçıvan, Urmiya hövzəsi Kür-Araz mədəniyyətinin əsas formalaşdığı rayonlardan olmuşlar.

Dissertasiyanın **"Nəticə"** hissəsində Şərur rayonunun Eneolit və Erkən Tunc dövrü abidələrinin tədqiqi ilə bağlı alınan nəticələr ümumiləşdirilmişdir. Şərur rayonunda yerləşən arxeoloji abidələrin təd-

---

[40] Кушнарева, К.Х. Древние культуры Южного Кавказа / К.Х.Кушнарева, Т.Н.Чубинишвили – М. - Л.: Наука, – 1970. – s. 191.

[41] Baxşəliyev, V.B. Aşağı Daşarx / V.Baxşəliyev, A.Seyidov – Bakı: Elm, – 2012. – s. 96-97.

qiqi nəticəsində Eneolit dövrünün müxtəlif mərhələləri ortaya çıxarılmış, Ovçulartəpə yaşayış yerinin araşdırılması isə Son Eneolit və Erkən Tunc dövrü arasında genetik əlaqələrin mövcud olduğunu göstərmişdir [3]. Erkən Tunc dövrü mədəniyyətinin öyrənilməsində isə I Maxta Kültəpə, Ərəbyengicə və Şortəpə arxeoloji abidələrindən aşkar olunan maddi mədəniyyət nümunələrinin mühüm əhəmiyyəti olmuşdur. Erkən Tunc dövrü arxeoloji abidələrinin kompleks tədqiqi arxeoloji mədəniyyətlərin bütövlüyünü, bir-birini tamamlamasını Naxçıvan ərazisinin mədəni, etnik və iqtisadi tərəfdən həm Cənubi, həm də Şimali Azərbaycanın tərkib hissəsi olduğunu göstərir.

Tədqiq edilən bölgədə, istər Eneolit, istərsə də Erkən Tunc dövrünə aid təbəqənin qalınlığı insanların əkinçilik və maldarlıqla məşğul olduğunu, köçmə maldarlığın mənimsənildiyini göstərir. Erkən Tunc dövründə patriarxal münasibətlərin yaranması və inkişafı, istehsal prosesinin genişlənməsi və çoxsahəli olması ilə səciyyələnir. Bu dövrdə iqtisadiyyatın inkişafı maldarlığın əkinçilikdən ayrılmasına, əkinçilikdə qoşqu qüvvəsinin tətbiqinə, xış əkinçiliyinin meydana çıxmasına, yaylaq maldarlığının yaranmasına və inkişafına səbəb olmuşdur [5].

Naxıvanın Son Eneolit keramikası ilə İqdır ovalığının və Urmiya hövzəsində yerləşən arxeoloji abidələrin keramikasında istər morfoloji, istərsə də texnoloji baxımdan yaxın bənzərlik izlənməkdədir [10]. Naxçıvanın Son Eneolit keramikası həmçinin Azərbaycanda Keçili, Menteştəpə kimi yaşayış yerlərinin keramikası ilə də müəyyən bənzərliyə sahibdir. Bu bölgələrin keramika məmulatında izlənən lokal fərqlər, şübhəsiz ki, mədəniyyətlərin yerli inkişafının məhsulu olmuşdur.

Xələc və Ovçulartəpə yaşayış yerlərində Son Eneolit keramikasının bir qismi ağzının kənarı dalğalı, yaxud ağzının kənarı dairəvi deşiklərlə naxışlanmış kasa və tabaq tipli qabların parçalarından ibarətdir. Saman qarışıq gildən hazırlanan və qırmızı rəngdə bişirilən bu tip keramika məmulatı Azərbaycanın, o cümlədən Naxçıvanın keramika məmulatı üçün xarakterik olduğundan, bizim fikrimizə görə, yerli istehsalın məhsulu olmuşdur. Digər tərəfdən apardığımız araşdırmalar göstərir ki, bu tip keramikanın ən qədim nümunələri məhz

Ovçulartəpə yaşayış yerindən əldə edilmişdir [8]. Buna görə də Azərbaycanın Son Eneolit keramikasının Sioni mədəniyyəti adlandırılması əsassızdır. Lakin qeyd etmək lazımdır ki, Ovçulartəpə keramikasının az bir qismi (8 ədəd) Sioni mədəniyyəti üçün xarakterik olan, qum qarışıq gildən hazırlanaraq qara, yaxud boz rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Bu tip keramika arxeoloji ədəbiyyatda "Sioni mədəniyyəti" adlandırılmışdır. Ancaq bu keramikanın mənşəyi tam müəyyən edilməmişdir [1]. Bizim fikrimizə görə, Son Eneolit dövründə Gürcüstanda qara və boz rəngli Sioni keramikasının formalaşmasına Şərqi Anadolu mədəniyyətlərinin müəyyən təsiri olmuşdur. Arxeoloji araşdırmalar bu tip keramikanın Şərqi Anadolu mədəniyyətləri üçün xarakterik olduğunu göstərir.

Bizim fikrimizə görə, Ovçulartəpə mədəniyyəti İqdır ovalığına, Urmiya hövzəsinə, Mil-Qarabağ düzlərinə də yayılmışdır.

Şərur rayonunun Ovçulartəpə, Xələc, I Maxta Kültəpə, Ərəbyengicə yaşayış yerlərindən aşkar olunan keramika məmulatının bir qismi Proto Kür-Araz keramikası ilə xarakterizə olunur [7]. Bu tip keramika nümunələri həmçinin Azərbaycanın Qarabağ abidələrindən də aşkar olunmuşdur. Saman və iri qum qarışığından hazırlanan bu tip keramika qara, qırmızı və boz rəngdə bişirilmişdir. Qırmızı rəngli saman qarışıq keramika Azərbaycan abidələri, o cümlədən Naxçıvan üçün xarakterik olmuşdur. Lakin Şərqi Anadoluda qırmızı və qara rəngli keramikanın istifadə olunması Neolit və Eneolit abidələrindən məlumdur. Qara, yaxud boz rəngli keramika Cənubi Qafqazın Eneolit mədəniyyəti üçün xarakterik deyil. Belə hesab edirik ki, Kür-Araz mədəniyyətinin ilkin formalaşdığı areal Qarabağ, Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə etmişdir.

Şərur rayonunda yerləşən Ovçulartəpə, Xələc, I Maxta Kültəpə, Ərəbyengicə, Şortəpə kimi arxeoloji abidələrdə Kür-Araz mədəniyyətinin bütün mərhələləri ardıcıl olaraq izlənmiş, Kür-Araz mədəniyyətinə aid ən qədim təbəqələr və maddi-mədəniyyət nümunələri Ovçulartəpə yaşayış yerindən aşkar olunmuşdur. Bu baxımdan deyə bilərik ki, Şərur rayonu bu mədəniyyətin formalaşdığı əsas ocaqlardan biri olmuşdur [6].

Arxeoloji araşdırmalara əsaslanaraq Şərur rayonunun Son Eneolit mədəniyyətinin yerli zəmində inkişaf edərək formalaşdığını, həmçinin Son Eneolit mədəniyyətinin Kür-Araz mədəniyyətinin formalaşmasında mühüm rol oynadığını deyə bilərik. Bununla belə Naxçıvanın Son Eneolit mədəniyyətinin formalaşmasında Şərqi Anadolu ilə əlaqələrin də müəyyən rol oynadığını demək olar [11]. Naxçıvan və Şərqi Anadolu arasında sıx iqtisadi-mədəni əlaqələr bu regionların mədəniyyətlərinin bir-birinə təsir etməsinə və özünəməxsus xüsusiyyətləri ilə fərqlənən yerli mədəniyyətlərin yaranmasına səbəb olmuşdur. Bu regionlar arasındakı sıx iqtisadi-mədəni əlaqələr, fikrimizə görə, Cənubi Qafqazın və Şərqi Anadolunun zəngin xammal mənbələri ilə bağlı olmuşdur.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**


1. “Sioni kültürü”: Yeni buluntular işığında // “Uluslararası Doğu Anadolu-Güney Kafkasya kültürleri” sempozyumu, – Erzurum, – 10-13 oktyabr, – 2012. – s. 29.
2. Naxçıvanın Şərur bölgəsində aparılmış arxeoloji tədqiqatlar (1995-2015) // “Naxçıvan müstəqillik illərində: Hədəflər, inkişaf, nəticələr” Respublika elmi konfransı, – Naxçıvan: – 3-4 dekabr – 2015, – s. 203-208.
3. Arpaçay vadisinin Eneolit mədəniyyəti // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, – 2016. № 3, – s. 211-216.
4. Qədim Şərur bölgəsinin Erkən-Tunc dövrü keramikası tarixindən (1991-2015-ci illər) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2016. № 5 (79), – s. 93-96.
5. Arpaçay vadisinin Erkən Tunc dövrü mədəniyyəti // “Ulu öndər Heydər Əliyevin irsində multikultural və tolerant dəyərlər” Beynəlxalq elmi konfransı, – Bakı: – 3-5 may, – 2016, – s. 178-180.
6. Naxçıvanın qədim dövr tarixinin öyrənilməsində Şərur bölgəsinin Eneolit dövrü abidələrinin rolu // Gənc alimlərin I Beynəlxalq elmi konfransı, – Gəncə, – 17-18 oktyabr, – 2016, – s. 136-137.

7. Eneolit dövrünün qədim yaşayış yerləri (Şərur abidələri timsalında) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2017. № 2 (83), – s. 79-81.

8. Şərur arxeoloji abidələrinin tədqiqi Eneolit mədəniyyətinin öyrənilməsinə mühüm töhfədir // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2017. № 6 (87), – s. 59-63.

9. Eneolit və Erkən Tunc dövrünün qəbir abidələri (Şərur abidələri timsalında) // – Bakı: Bakı Dövlət Universitetinin Tarix və onun problemləri, – 2017, № 2, – s. 304-307.

10. Ovchulartepe settlement as a magnificent monument of Eneolithic period and Early bronze age // – Istanbul: ISPEC International Journal of Social Sciences & Humanities, – 2017. Vol: 1, Issue: 1, – p. 40-43.

11. Research on the origin of Eneolithic culture (Regarding the study of Nakhchivan-Sharur archeological monuments) // – Kiev: Гілея науковий вісник, – 2021. Vol: 163 (№ 6-7), – p. 52-53.

12. About metal objects found in archeological monuments of Eneolithic period of Sharur region of Azerbaijan // IX International Multidisciplinary Conference “Prospects and Key Tendencies of Science in Contemporary World”. Bubok Publishing S.L., Madrid, Spain. 2021. – p. 5-8.

13. Chronology of Eneolithic culture (regarding the study of Nakhchivan-Sharur archeological monuments) // – Москва: Проблемы науки, – 2021. № 7 (66), – p. 22-24.

Dissertasiyanın müdafiəsi 05 noyabr 2021-ci il tarixdə saat $14^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.09.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 41.783
Tiraj: 100